# Ankarada YAP ilə AK Parti arasında əməkdaşlıq məsələləri müzakirə olunub

Martın 13-də Ankarada Tahir Budaqov ilə Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin birinci müavini, İstanbul millət vəkili Numan Kurtulmuş arasında görüş keçirilib.

Numan Kurtulmuş Azərbaycan ilə Türkiyə arasındakı dostluq, qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin önəmindən bəhs edib. O, YAP nümayəndə heyətinin səfərinin bu gerçəkliyin bariz nümunəsi və həmrəylik örnəyi olduğunu söyləyib. O, Azərbaycan ilə Türkiyənin istənilən şəraitdə və hər vəziyyətdə bir-birinin yanında olduqlarını qeyd edib. Türkiyədə baş vermiş zəlzələnin ilk dəqiqələrindən Prezident İlham Əliyevin Türkiyəyə dəstək ifadə etdiyini xatırladan Numan Kurtulmuş Azərbaycanın göstərdiyi maddi və mənəvi dəstəyin Türkiyə xalqı və dövləti tərəfindən yüksək qiymətləndirildiyini bildirib. O, Prezident İlham Əliyevin qardaş dəstəyinə xüsusi ehtiyacın olduğu günlərdə Türkiyəyə səfər etməsinin böyük minnətdarlıqla qarşılandığını diqqətə çatdırıb. AK Parti Sədrinin birinci müavini zəlzələnin acı fəsadlarının aradan qaldırılması istiqamətində ardıcıl iş aparıldığını və Türkiyənin bu ağır sınaqdan da şərəflə çıxacağını vurğulayıb.

Qardaş ölkədə baş vermiş zəlzələ nəticəsində on minlərlə insanın həyatını itirməsinin və xəsarət almasının Azərbaycan xalqı tərəfindən böyük üzüntü ilə qarşılandığını söyləyən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov fəlakətlə əlaqədar Türkiyə xalqına başsağlığı verib, yaralananlara Allahdan şəfa diləyib.



YAP Sədrinin müavini təbii fəlakətin baş verməsinin ardından dərhal Azərbaycanın qardaş ölkəyə dəstək göstərdiyini xatırladaraq acı faciənin fəsadlarının aradan qaldırılması üçün Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müvafiq göstərişləri ilə təxirəsalınmaz tədbirlər həyata keçirildiyini diqqətə çatdırıb. O, Azərbaycan xalqının könüllü şəkildə müxtəlif təşəbbüslər irəli sürərək maddi və mənəvi dəstək göstərməsinin sarsılmaz birlik nümunəsi olduğunu vurğulayıb. Tahir Budaqov bütün Azərbaycan xalqı kimi, YAP üzvlərinin də zəlzələdən əziyyət çəkən qardaşlarımıza dəstəyini və köməyini əsirgəmədiklərini qeyd edib.

YAP Sədrinin müavini Türkiyənin qüdrətli dövlət kimi istənilən çətinliyin öhdəsindən gəlmək iqtidarında olduğunu bildirib. O, Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə görülən işlər nəticəsində təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılacağına əminliyini ifadə edib, Azərbaycanın hər zaman sevincimizin və kədərimizin bir olduğu dost və qardaş Türkiyənin yanında olduğunu vurğulayıb. Qarşıdan gələn seçkilərin qardaş ölkənin gələcəyi üçün uğurlu olmasını arzulayan Tahir Budaqov bildirib: "Türkiyə xalqı müdrikdir və inanıram ki, düzgün seçim edərək son illərdə qazanılan möhtəşəm uğurların davamına səs verəcək".

Görüşdə YAP ilə AK Parti arasındakı münasibətlərin hazırkı durumu və perspektivləri barədə də fikir mübadiləsi aparılıb. 2021-ci ildə iki partiya arasında imzalanmış əməkdaşlıq protokolundan irəli gələrək mühüm addımların atıldığı, qarşılıqlı səfərlərin əlaqələrin inkişafına əhəmiyyətli töhfə olduğu diqqətə çatdırılıb.

Daha sonra qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunub.

Azərbaycan.- 2023.-14 mart.- S.2.